Ədalət.- 2020.- 10 oktyabr. S. 6.



Maşallah Məftun,
hərbi ekspert,
Qarabağ qazisi

# ...PREZİDENTİMİZİ QORUMALIYIQ Kİ...

***Azərbaycan xalqı 30 ilə yaxındır özünün dədə-baba torpaqlarına qayıda bilmir. Tarixi torpaqlarımızdan ötrü mübarizə aparmaq xalqımızın boyun borcuna çevrilmişdir. Nəyin bahasına olur olsun ya xalqımız öz torpaqlarını erməni işğalçılarından azad etməlidir, yadakı bir millət kimi məhv olmalıdır. Millətin başqa yolu yoxdur, artıq qaradan oyana rəng yoxdur. Necə deyərlər bıçaq sümüyə dirənib. 27 sentyabrdan intensiv hal alan erməni hücumları çoxlu dağıntılara səbəb olmuş xalqın səbr kasası daşmış nəticədə Azərbaycan Respublikasının prezident Ali Baş Komandan İlham Əliyev cənabları ermənistanı yerində oturtmaq üçün ordumuza əks-hücuma keçmək barədə əmr vermişdir. Sözsüz ki, ermənilər haqqında dünya içtimayyətinin təsəvvürü, bilgisi bir qədər artacaqdı ki, bu etnos kimdir? Çığır-bağır salmaqla var-dövlət qazanmaq, sərvət toplamaq, torpaq qopartmaq, elmə elmi dəlillər gətirmək ,satqınçılıq bu etnosun qanındadır. Heç cürə sağalmayan bu erməni xəstəliyi artıq xalqımızın hiddətini bir daha coşdurdu. Xalqımız öz sözünü demək zorunda qaldı...***

***Birinci Qarabağ savaşından bir haşiyə:***

**-Əsgər Sadıxov salam məyər məni görmədim sizlə salamlaşmaq istəyirəm...**

-Hə komandir ...bağışlayın görmədim bir qədər başım qarışıqdı.

**-Allah eləsin başın yaxşı işlərə qarışsın-dedim.**

-Hə... elə yaxşı işdir, bu gün bundan yaxşı iş yoxdur, Abdullayla Elsu Qarabağda döyüşürlər...

Bunu eşidəndə ilk Qrabağ qazilərindən olan keçmiş əsgərim Mübariz Abdulla oğlu Sadıxovu bərk-bərk qucaqlayıb özümə sıxdım:

**-Qələbə bizimlədir, mübarək-mübarək-dedim.**

-Əlbət ki, bundan yaxşı nə ola bilər, artıq iki oğlum Qarabağ döyüşlərindədir...Sevinə-sevinə:-döyüşürlər-döyüşürlər...

**-Əziz oxucular uzun illərlə görmədiyim keçmiş əsgərimdən bu sözləri eşitmək məni sevindirsədə daxilimdə özümdən asılı olmayan kədərlə-sevinc qolboyun yallı gedirdi. Aman allahım xalqımıza kömək ol, millətimizin elə bil oyanışı başlayıb. Böyük şairimiz Məmməd Araz demiş ”...Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı”.**

-Bəli Qarabağ qazisi Sadıxov Mübariz Abdulla oğlu Ağstafa rayonunun Muğanlı kəndində yaşayır. Oğlu Abdulla beş ildir gizir kimi hərbidə qulluq edir. Oktyabr ayında ilk nigahından övlad gözləyir. Kiçik qardaşı Sadıxov Elsu 7 aydır hərbi xidmətdədir. Döyüşçülərin atası Mübariz, anası Aişə oğlanlarıyla qürur duyurlar. Keçmiş Qarabağ döyüşçüsünün təəssüratlarından:

**-Oğlum Abdulla Cəbrayıl istiqamətində, Elsu isəTərtər istiqamətində döyüşürlər. Əmim nəvəsi Sadıxov Elvin və Pərvin qardaşları, ikisidə Natiqin oğlanlarıdır onlarda döyüşürlər. Yaxın qohumlarımdan Sadıxov Səbuhi Xaləddin oğlu həkim kimi döyüş zonalarının birisinə göndərilib. Sadıxov Vazi, Vüsal Qəzənfəroğlu bir yerdədirlər, döyüş bölgəsinə ezam olunublar. Mən cənab prezidentimizlə qürur duyuram. Biz birinci prezidentimiz və Ali Baş Komandanımız İlham Əliyevi qorumalıyıq ondan ötəri ki, 30 ilə yaxın xalqımızın, sızıldayan yarasına məlhəm oldu. Ordumuza hamı dəstək olmalıdır. Milyonları xarici ölkələrə çıxaranlara səslənirəm-bəs haçan qeyrətə gələcəksiniz-yaxına gəlin də, bundan ağır və şərəfli günümüz olmayacaq. Axı Azərbaycan ordusu tarix yazır. Yaxın günlərdə ordumuzun parlaq qələbəsi xəbəri birbirinin ardınca gələcək biz buna əminik...”Qarabağ Azərbaycandır!”**




Ermənistanın baş naziri Nikol Paşinyan danışıqlar stolunun üstündən qara xətt çəkərək kənara tulladı. ATƏT-in 30 ilə yaxın yürütdüyü diplomatiya beləcə sona yetdi. İndi internetdə bölgələrimizi xəritəsinə ötəri nəzər salmaq bəs edir ki, bu erməni faşistlərinin bizə necə dağ çəkdiyinin şahidi olasan. Tarixi adlarımız hansı it dilində göstərilir-məni dəhşət bürüdü. Mənasız danışıqlarla başımızı qatan fahişə dövlətlər indi Ermənistanı silahlandırmaqla məşğuldurlar, həm də yalvarırlar əks-hücumu dayandırın. R.T.Ərdoğan demiş ”Ermənistan qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür”.

Bəli-İlham Əliyevin özünəməxsus yüksək səviyyəli xəbərdarlıqlarını Nikol Paşinyan qulaq ardına vurdu. Nə edəsən Paşinyan belə Paşinyandı. Son günlər Ermənistandan atılan raket zərbələri bu xalqın görünən və görünməyən içini bir daha açıb göstərdi. Xızı, Gəncə, Yevlax, Mingəçevir, Ağdam, Cəbrayıl, Tərtər- bu kimi Azərbaycanın iri şəhərlərində dinc əhalini, qocaları, cocuqları, onların mal-qaralarının ölümünə səbəb oldu. Bütün bunlar Beynəlxalq hüququn gözü önündə baş verdi. İşğalçı dövlət bu hərəkətiylə Cenevrə konvensiyasının bəzi maddələrini kobud şəkildə pozdu və ardını yenə də davam etdirməkdədir. İşğalçı ordudan fərqli olaraq Azərbaycan ordusu tarixi mədəni xüsusiylə dini abidələri, tikililəri hədəfə almır, bunu dünya içtimaiyyəti bilməlidir.

Xristian kartı...Bəzi dünya dövlətləri ikili standarlarla mövqe sərgiləməkdə davam edirlər. Belə səssiz qalan dövlət başçılarlnın elə iki üzlü adlandırmaq yerinə düşərdi. Ermənistanın soyqırım törətdiyi Qarabağda daxil olmaqla Azərbaycanın bir hissəsinin işğalı 30 ildir davam edir. Beynəlxalq içtimaiyyətin bu işğala səssiz qalması Ermənistanı bir daha ruhlandırmışdı. Onun üçün o mülki vətəndaşlarımıza qarşı hücumlar planlaşdırırdı. Bu onu göstərir ki, Ermənistan bu gün bölgədə sülh, sabitlik, qonşuluq münasibətlərindən ötrü böyük manedir. Azərbaycan Respublikası sabit dünyəvi, suveren dövlətdibr. Tezliklə ordumuz qələbə xəbərini bizə bəxş edəcəkdir, hazır olun qələbə bizimlədir!